Elm: xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.22.

# *Sultan Raev:*
# "Azərbaycan Milli Elmlər Akademiyası Türk dünyasında mövcud olan avanqard akademiyalardan biridir"



**Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə təntənəli tədbirlər keçirilir. Yubiley tədbirlərində iştirak edən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi, Qırğızıstan Respublikasının Əməkdar mədəniyyət xadimi və Xalq yazıçısı Sultan Raev öz təəssüratlarını bizimlə bölüşüb. Sultan Raev deyib:**

- Azərbaycan Milli Elmlər Akademiyası bizim mənəvi tərəfdaşımızdır, biz mütəmadi olaraq mədəniyyət, ədəbiyyat, irs sahələrində müştərək layihələr həyata keçiririk. Baş tutan birgə təşəbbüslərdən Bəxtiyar Vahabzadənin yubileyi, Nizami Gəncəviyə həsr olunmuş tədbirləri sadalamaq olar. Həmçinin əməkdaşlığın bir istiqaməti də tarix-memarlıq abidələridir.

Bundan əlavə, layihələr Azərbaycanın işğaldan azad olunmuş ərazilərində, Qarabağ bölgəsində həyata keçirilir. Burada bərpa və yenidənqurma işlərinə dəstək veririk.

Fikrimcə, Azərbaycan Milli Elmlər Akademiyası postsovet məkanında, Türk dünyasında və ümumiyyətlə bütün dünyada mövcud olan avanqardlardan biridir. Bilirik ki, burada dünya elmində silinməz izlər buraxan, elmin və bütün bəşəriyyətin inkişafına böyük töhfələr verən görkəmli alimlər işləyib. Elmlər Akademiyasına gələcək uğurlar və yeni nailiyyətlər arzulayıram.

AMEA ilə gələcək əməkdaşlıq ədəbi və mədəni irsin öyrənilməsi sahəsində davam etdiriləcək. Həmçinin qeyd edim ki, hazırda biz petroqliflərə dair böyük layihə üzərində işləyirik. Hesab edirəm ki, petroqliflər insan dühasının ilk yaradıcılıq sahələrindən biridir, faktiki olaraq, petroqliflər türk xalqlarının ortaq köklərinin nə dərəcədə dərin olduğunu sübut edən təsviri sənətin təməllərindən biridir. Əcdadlarımızın yaratdıqları qayaüstü rəsmlər bütün dünyada geniş müzakirə edilir. Bu gün petroqliflərin müasir texnologiyalar vasitəsilə öyrənilməsi, onların elmi şərhi böyük aktuallıq kəsb edir, çünki petroqliflər sakral, mənəvi məna daşıyır.

Biz altıcildlik üzərində işləyirik, nəşrin hər cildi türk dünyasının bir ölkəsinin petroqliflərinə həsr olunacaq. Bu, yalnız türk dünyası üçün deyil, ümumbəşəri əhəmiyyəti ilə fərqlənən genişmiqyaslı layihədir. Bizim tərəfdaşlarımız əsasən elmlər akademiyaları, o cümlədən də AMEA-dır. Elmi qurumların rəhbərləri artıq layihədə iştiraklarını təsdiqləyib. Sözügedən təşəbbüs TÜRKSOY-un və Türk dünyasının elmlər akademiyalarının bu məsələnin öyrənilməsinə dəyərli töhfəsi olacaq.